

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 88 (24.225)

*18 may 2023-cü il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 30 qəpik

## Azərbaycan Prezidenti İlham Əliyev Slovakiya parlamentinin sədrini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 17-də Slovakiya parlamentinin sədri Boris Kolları qəbul edib.

Dövlətimizin başçısı Boris Kolların rəhbərlik etdiyi nümayəndə heyətinin Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş Azərbaycan Respublikası Milli Məclisinin xüsusi iclasında iştirakına görə təşəkkürünü bildirdi, bunu ölkələrimiz arasında əlaqələrin yaxşı göstəricisi kimi dəyərləndirdi.

Prezident İlham Əliyev Azərbaycanla Slovakiya arasında fəal dialoqun həyata keçirilməsindən məmnunluğunu bildirərək Boris Kolların səfərinin əməkdaşlığın perspektivləri ilə bağlı müxtəlif sahələrdə, o cümlədən parlamentlərarası əlaqələrin inkişafı üzrə müzakirələrin aparılması üçün yaxşı imkan yaratdığını dedi.

Enerji sahəsində əlaqələrə toxunan dövlətimizin başçısı bu ilin aprelində Sofiyada Bolqarıstan, Rumıniya, Macarıstan, Slovakiyanın ötürücü sistem operatorları və SOCAR arasında Anlaşma Memorandumunun imzalanmasının önəmini qeyd etdi, "Həmrəylik Halqası" STRİNG layihəsi çərçivəsində də ölkələrimiz arasında əməkdaşlığın yeni mərhələyə qədəm qoyduğunu bildirdi. Prezident İlham Əliyev ticarət, qarşılıqlı investisiya qoyuluşu, nəqliyyat sahələrində də əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın olduğunu vurğuladı.

Göstərilən qonaqpərvərliyə görə minnətdarlığını ifadə edən qonaq Ulu Öndərin anadan olmasının 100 illiyi münasibətilə keçirilən tədbirdə iştirak etməkdən şərəf duyduqlarını vurğuladı. Ulu Öndərin böyük müdrikliyə və güclü iradəyə malik, xarizmatik şəxsiyyət olduğunu, Azərbaycanın dövlətçiliyinin əsasını qoyduğunu deyən Slovakiya parlamentinin sədri məhz onun uzaqgörənliyi nəticəsində ölkəmizin davamlı surətdə inkişaf etdiyini diqqətə çatdırdı.

Azərbaycanın çox müasir və gözəl olduğunu vurğulayan Boris Kollar ölkəmizə ikinci dəfə gəldiyini dedi, ötən il Şuşaya səfərini məmnunluqla xatırladı.

Slovakiyanın Azərbaycanın ərazi bütövlüyünü tam və qəti şəkildə dəstəklədiyini deyən Boris Kollar işğaldan azad olunmuş ərazilərimizdə aparılan bərpa və quruculuq işlərini qeyd etdi, orada Slovakiya şirkətlərinin də fəaliyyət göstərməkdə və müxtəlif layihələrdə iştirak etməkdə maraqlı olduğunu diqqətə çatdırdı.

Minatəmizləmə sahəsində Azərbaycanın Slovakiya şirkətləri ilə səmərəli əməkdaşlığına toxunan qonaq ölkəsində istehsal olunan minatəmizləmə maşınlarının humanitar minatəmizləmə fəaliyyəti üçün ərazidə səmərəli şəkildə tətbiq olunmasını xüsusi vurğuladı.

Söhbət zamanı ölkələrimiz arasında enerji sahəsində gələcək əməkdaşlıq məsələləri müzakirə olundu, bu yaxınlarda Bolqarıstanda əsası qoyulmuş "Həmrəylik Halqası" təşəbbüsü çərçivəsində Azərbaycan qazının Slovakiyaya çatdırılması istiqamətində böyük perspektivlərin olduğu bildirildi.

Görüşdə Slovakiyanın Azərbaycanın Avropa İttifaqı və NATO ilə əməkdaşlığına verdiyi dəstək yüksək qiymətləndirildi.

## Azərbaycan Prezidenti İlham Əliyev Avrasiya İqtisadi Komissiyası Kollegiyasının sədrini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 17-də Avrasiya İqtisadi Komissiyası Kollegiyasının sədri Mixail Myasnikoviçi qəbul edib.

Mixail Myasnikoviç Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdı, Ulu Öndərin böyük tarixi şəxsiyyət kimi Azərbaycanın inkişafında müstəsna rolunu qeyd etdi.

Görüşdə Azərbaycanın Avrasiya İqtisadi İttifaqına daxil olan üzv dövlətlərlə ticarət dövriyyəsinin və ticarət imkanlarının genişləndirilməsi barədə müzakirələr aparıldı.

Mixail Myasnikoviç Prezident İlham Əliyevə əməkdaşlıq istiqamətləri barədə təkliflər verdi.

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva XVI "Caspian Agro" və XXVIII "InterFood Azerbaijan" sərgiləri ilə tanış olublar







Mayın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakı Ekspo Mərkəzində XVI Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı – "Caspian Agro" və XXVIII Azərbaycan Beynəlxalq Qida Sənayesi – "InterFood Azerbaijan" sərgiləri ilə tanış olublar.

Kənd təsərrüfatı naziri Məcnun Məmmədov dövlətimizin başçısına və birinci xanıma sərgilərlə bağlı məlumat verdi.

Bildirildi ki, hər il olduğu kimi bu il də sərgilərə iştirakçılar və ziyarətçilər tərəfindən böyük maraq göstərilir. Bakı Ekspo Mərkəzinin bütün mümkün pavilyonlarını və açıq sahəsini əhatə edən sərgilərdə rekord sayda milli və regional stendlər nümayiş olunur. Ümumilikdə, sərgilərdə 31 ölkədən 479 şirkət iştirak edir, 9 ölkə isə milli stendlərlə təmsil olunur. "Caspian Agro" və "InterFood Azerbaijan" sərgilərində ABŞ, Almaniya, Belarus, Gürcüstan, İtaliya, Niderland, Şri Lanka, Rusiyanın regional qrupları, eləcə də builki debütant ölkə Tunis və Çexiyadan olan milli qruplar iştirak edirlər.

Dövlətimizin başçısı və birinci xanım sərgidə "Grow Group Azərbaycan", "Maschio Gaspardo", "New Holland", "Rostselmaş", "MySilo", "Rauch Landmashchinen", "SwissGrow", "AfiMilk", "Gowan", "Can-Pa" şirkətlərinin, Çexiyanın, İtaliyanın, Belarusun, Gürcüstanın, ABŞ-ın və Niderlandın stendləri ilə tanış oldular. Stendlərdə ən müasir kənd təsərrüfatı texnikaları, əkinbiçin aqreqatları və kənd təsərrüfatı məhsulları təqdim olunur.

Naxçıvan Muxtar Respublikasının stendi ilə tanışlıq zamanı bildirildi ki, kənd təsərrüfatı məhsullarının istehsalında ərzaq və qida təhlükəsizliyi başlıca şərtlərdən biridir və Naxçıvan fermerləri daha çox orqanik məhsulları yetişdirməyə üstünlük verirlər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kənd Təsərrüfatı Nazirliyinin pavilyonu ilə tanış oldular. Burada Ümummilli Lider Heydər Əliyevə həsr olunan xüsusi təqdimat hazırlanıb. Bildirildi ki, bu il xalqımız müasir Azərbaycanın qurucusu Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyini qeyd edir.

*Ardı 2-ci səhifədə*



Buna görə də sərgilər də məhz Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunub. Azərbaycanda aqrar sahənin inkişafı Ulu Öndərin fəaliyyəti ilə sıx bağlıdır. Ümummilli Lider Heydər Əliyevin siyasi kursu Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlətimizin başçısının qəbul etdiyi qərarlar, imzaladığı fərman və sərəncamlar ölkə iqtisadiyyatının, o cümlədən aqrar sektorun davamlı inkişafına real zəmin yaradır.

Pavilyonda, həmçinin Elmi-Tədqiqat institutlarının ən son nailiyyətləri, yaşıl enerji mənbələrinə dair qurğu və məhsullar nümayiş olunur.

Burada müxtəlif yarış və müsabiqələrin qalib aqrar startapçıları tərəfindən arıçılıqda “varatoz” gənəsinə qarşı mübarizə, ənənəvi balıq yetişdirmə üsullarının hidroponik əkinçiliklə birləşdirən sistem, bioqaz, alternativ enerji mənbələrindən əldə edilmiş hidrogen qazı, ağıllı istixana idarəetmə sistemi, alaq otlarını lazer sistemi ilə təmizləyən aqro-robot, avtomobillər üçün portativ qida bloku, külək və günəş izləmə qurğuları, idarəolunan günəş panelləri, uzaqdan idarəolunan sayğaclar, külək turbinləri, iqlim stansiyası, dəqiq suvarma idarəçiliyi üçün sensor, suvarmada istifadə olunan günəş enerjisi ilə işləyən inventorlar sərgilənir.

Ölkəmizdə bütün sahələrdə olduğu kimi, kənd təsərrüfatında da innovasiyaların və müasir texnologiyaların tətbiqi dövlət tərəfindən dəstəklənir. Kənd təsərrüfatının intensiv inkişafı həm də aqrar sektorda innovasiyaların tətbiqindən birbaşa asılıdır. Aqrar sahələrdə innovasiyalardan istifadə günümüzün çağırışı olduğundan sərgilər kənd təsərrüfatı məhsullarının istehsalçılarına bu innovativ yeniliklərlə əyani tanış olmağa imkan verir.

Bildirildi ki, “Caspian Agro” və “InterFood Azerbaijan” sərgilərində KOBİA-nın dəstəyi ilə qida sənayesi və kənd təsərrüfatı sahələrində fəaliyyət göstərən mikro və kiçik sahibkarlıq subyektləri də öz məhsul və xidmətlərini təqdim edirlər.

Sərgi çərçivəsində açıq sahədə kənd təsərrüfatında istifadə olunan texnikalar nümayiş olunur. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva “Azərtexnika” MMC, “Agritex” MMC, “Agromotors” şirkətlərinin və Gəncə avtomobil zavodunun texnikaları ilə tanış oldular.

Qeyd edək ki, üç gün davam edəcək sərgilər çərçivəsində Aqrar İnnovasiyalar Forumu təşkil olunacaq. Forumda “Kənd təsərrüfatının inkişafında Heydər Əliyevin uğurlu aqrar siyasəti”, “Kənd təsərrüfatında innovativ həllərə əsaslanan texnologiyalar”, “Orqanik kənd təsərrüfatı”, “Rəqəmsal kənd təsərrüfatı”, “Yaşıl kənd təsərrüfatı” və digər mövzular müzakirə ediləcək.

“InterFood Azerbaijan” sərgisi çərçivəsində dekorativ yeməklərin kompozisiyasından ibarət “Qida – sənət əsəri” sərgisi, Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş “Qızıl Şah – Qızıl Yüzlük” III Milli Kulinariya Çempionatı da təşkil ediləcək.

**AZƏRTAC**

## Culfa rayonunda “Aquamarine Fish House” istirahət mərkəzi istifadəyə verilib





Azərbaycanın ümumi tərəqqisi regionlarımızın ahəngdar inkişafından, sosial-iqtisadi və mədəni həyatda əldə olunan nəticələrdən, bölgələrdə həyata keçirilən layihələrdən çox asılıdır. Təsadüfi deyil ki, muxtar respublikada da yeni müəssisələrin, o cümlədən turizm-istirahət məkanlarının açılışı, yeni obyektlərin təməlinin qoyulması diqqət mərkəzində saxlanılır.

Bu məqsədlə mayın 15-də Culfa rayonunun Ərəfsə kəndində “Aquamarine Fish House” əlavi istirahət mərkəzi istifadəyə verilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Culfa rayonunda yerləşən yeni xidmət sahəsinin fəaliyyətə başlaması münasibətilə kollektivi təbrik edib, yaradılan şəraitlə tanış olub.

Diqqətə çatdırılıb ki, 4 min kvadratmetr ərazidə özünəməxsus üslubda inşa olunan istirahət mərkəzinin yaradılmasına 500 min manatdan çox vəsait sərf olunub. 2 min kvadratmetr sahədə tikinti işləri aparılıb, 100 min manat dəyərində yerli istehsal avadanlıqları ilə yanaşı, Türkiyə və İran mənşəli avadanlıqlar quraşdırılıb. Tikinti işlərinə 401 min manat vəsait sərf olunub.

Mərkəz üçün sahəsi 100 kvadratmetr olan kafe, 8 ədəd kabin, qonaqların istirahəti üçün 9 yerlik söhbətgah, uşaqlar üçün əyləncə sahəsi, mətbəx, iş otağı və digər köməkçi sahələr yaradılıb.

Canlı musiqi, milli mətbəximizin ləziz yeməklərinin təqdim edildiyi mərkəzdə eyni vaxtda 300 nəfərə yüksəksəviyyəli xidmət göstərmək mümkündür.

Qeyd edilib ki, mərkəzdə 21 nəfərlik personalın çalışması həm regionlarda yeni iş yerlərinin açılması, həm də buradakı əhalinin rifahının yüksəldilməsi baxımından böyük əhəmiyyət daşıyır.

Mərkəzdə işıqlandırma sistemi, Wi-Fi, daxili rabitə və bir ədəd transformator quraşdırılıb, ərazi abadlaşdırılıb. Eyni zamanda müəssisənin su ilə təmin olunması məqsədilə 400 metr uzunluğunda su xətti çəkilib, suyun keyfiyyətinin yaxşılaşdırılması üçün filtr sistemi quraşdırılıb. Müəssisənin ərazisində sahəsi 870 kvadratmetr olan hovuza 1000 farel balığı buraxılıb.

Təmiz hava və füsunkar mənzərəyə malik “Aquamarine Fish House” əlavi istirahət mərkəzi yerli və xarici turistlərin sevimli əyləncə və istirahət məkanına çevriləcək. Bu obyektin istifadəyə verilməsi Naxçıvanın turizm potensialını artırmaq və şəhərimizə gələn qonaqların istirahətini mənalı təşkil etmək və məşğulluqda turizm sektorunun payının artırılmasında mühüm əhəmiyyət daşıyır.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

## Nazirlər Kabinetinin mətbuat xidmətinin məlumatı

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2023-cü il 1 may tarixli Qərarı ilə “Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin Yol hərəkətinin təşkili, tənzimlənməsi və təhlükəsizliyi üzrə Komissiyası haqqında” və “Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin Yol hərəkəti Təhlükəsizliyi Komissiyasının Əsasnaməsi haqqında” qərarları ləğv edilərək Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarına uyğunlaşdırılmışdır.

Nazirlər Kabinetinin eyni tarixli digər bir Qərarı ilə “Naxçıvan Muxtar Respublikasında dəmir yolu nəqliyyatı ilə sərnişindaşıma, poçt-baqaj, yük-baqaj və yükdaşıma xidmətlərinin tarifləri və dəmir yolu nəqliyyatından istifadəyə görə yığımların təsdiq edilməsi haqqında” Qərarı “Naxçıvan Dəmir Yolları” MMC-nin müraciətinə əsasən ləğv edilmişdir.

Eyni zamanda Nazirlər Kabinetinin 2023-cü il 3 may tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sifarişi əsasında 2022-ci ildə podratçı təşkilatlar tərəfindən icra edilmiş, lakin dəyəri ödənilməmiş tikinti-quraşdırma işlərinin, avadanlıq, mal-material və xidmətlərin dəyərinin ödənilməsi üçün müvafiq arayışın hazırlanıb təqdim edilməsi məqsədilə Komissiya yaradılmışdır.

Nazirlər Kabinetinin eyni tarixli digər bir qərarları ilə “Naxçıvan Lift Xidməti” publik hüquqi şəxsin Nizamnaməsinin və ştat cədvəlinin təsdiq edilməsi haqqında” və “Naxçıvan Şəhər Ticarət və Xidmət Departamenti” publik hüquqi şəxsin Nizamnaməsi”nin təsdiq edilməsi haqqında” qərarları Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müvafiq sərəncamlarına əsasən ləğv edilmişdir.

“Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin strukturuna daxil olan bir sıra qurumların ştat cədvəllərinin təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2017-ci il 8 iyun tarixli 58 nömrəli Qərarında dəyişiklik edilməsi barədə” Nazirlər Kabinetinin 2023-cü il 3 may tarixli Qərarı ilə Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Xüsusi Riskli Xilasetmə Xidmətinin, Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsinin, Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin və Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzinin ştat cədvəlləri ləğv edilmişdir.

Nazirlər Kabinetinin 2023-cü il 4 may tarixli Qərarı ilə “Naxçıvan Muxtar Respublikasının təhsil, tibb və bəzi sosialyönlü ictimai müəssisələri üçün qida normalarının təsdiq edilməsi haqqında” Qərarında dəyişiklik edilmişdir. Dəyişikliyə uyğun olaraq Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Ahıllar Evində, Əlillərin Bərpa Mərkəzində və Uşaq Bərpa Mərkəzində bir nəfərə gün ərzində düşən ərzaq normaları yeni redaksiyada təsdiq edilmişdir.

Nazirlər Kabinetinin eyni tarixli Qərarı ilə “Qapalı və sosialyönlü dövlət müəssisələri üçün dövlət büdcəsinin vəsaiti hesabına alınan ərzaq məhsullarının qiymətlərinin təsdiq edilməsi barədə” Qərarında dəyişiklik edilmişdir. Dəyişikliyə görə taxıl, un məhsulları və paxlalılar, meyvə və tərəvəzlər, süd və süd məhsulları, yağlar, ət və balıq məhsulları, qənnadı məmulatları, ədviyyatlar və digər ərzaq məhsullarının qiymətləri yeni redaksiyada verilmişdir.

Nazirlər Kabinetinin 2023-cü il 15 may tarixli Sərəncamı ilə Naxçıvan Tibbi-Sosial Ekspert Komissiyasına sənədləri təqdim olunan şəxslərin təkrar müayinəsinin aparılması üçün Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin birgə komissiyası ləğv olunmuşdur.

Nazirlər Kabinetinin eyni tarixli digər bir Qərarı ilə Naxçıvan Muxtar Respublikasının Dövlət Sığorta Xidməti publik hüquqi şəxsin ləğv edilməsi ilə əlaqədar “Naxçıvan Muxtar Respublikasında inzibati orqanların Təsnifatı”nın təsdiq edilməsi haqqında”, “Bir sıra publik hüquqi şəxslərin ştat cədvəllərinin təsdiq edilməsi haqqında” qərarlarında dəyişiklik edilmiş, “İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığortanın aparılması barədə” Qərarı ləğv edilmişdir.

## Tələbə qəbulu üçün infosessiya keçirilib



*Naxçıvan Dövlət Universitetində 2023-2024-cü tədris ili üzrə SABAH qruplarının bakalavriatura və magistratura səviyyəsində tələbə qəbulu üçün infosessiya keçirilib.*

Ali təhsil müəssisəsinin Həmkarlar İttifaqı Komitəsinin sədri, filologiya üzrə fəlsəfə doktoru Nicat Yaqubov SABAH qrupları layihəsinin əməkdaşlarını salamlayıb, onları Naxçıvan Dövlət Universitetində görməkdən məmnunluğunu ifadə edib.

SABAH qrupları layihəsi İcra Komitəsinin rəhbəri Eldar Qocayev qeyd edib ki, layihənin məqsədi xüsusi istedadı ilə seçilən və təhsildə göstəriciləri ilə fərqlənən tələbələrə yüksəkkeyfiyyətli təhsil almaq üçün əlverişli şərait yaratmaqdır. Diqqətə çatdırılıb ki, SABAH savadlı, bacarıqlı, hazırlıqlı tələbələrin təhsil aldığı qrupdur. SABAH qruplarının yaradılması ideyasının əsasında ali təhsilin keyfiyyətinin yüksəldilməsi, ölkəmizə lazım olan yüksəkixtisaslı mütəxəssislərin xaricdə deyil, məhz ölkəmizin ali məktəblərində hazırlanması durur. Həmin qruplara tələbə qəbulu Təhsil Nazirliyi tərəfindən təsdiq olunan xüsusi qaydalar əsasında aparılır. Bildirilib ki, bu qaydalara əsasən Azərbaycan Respublikasında fəaliyyət göstərən ali təhsil müəssisələrində I kurs tələbələrinin SABAH qruplarına qəbulu mərkəzləşdirilmiş qaydada üç mərhələli müsabiqə yolu ilə, elektron proqram təminatı tətbiq olunmaqla həyata keçirilir. Müsabiqənin I mərhələsi tələbələrin elektron qaydada Təhsil Nazirliyinin saytında yerləşdirilən qeydiyyat forması əsasında qeydiyyata alınması və elektron ərizədəki göstəricilərin qiymətləndirilməsi, II mərhələsi xarici dil və məntiq üzrə hər biri 25 sual olmaqla, 50 sualdan ibarət test imtahanının keçirilməsi, III – sonuncu mərhələsi isə test imtahanından uğurla keçən tələbələrlə müsahibənin aparılmasını əhatə edir.

Görüşdə, həmçinin bu qruplarda tədrisin təşkili, tələbələrə verilən bir sıra imtiyazlar haqqında da ətraflı məlumat verilib.

Sonra mövzu ilə bağlı tələbələri maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## Gələcəyin kitabxanaçıları üçün açıq dərs olub



Mayın 17-də Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında “Kitabxana fondlarında çap əsərlərinin düzülüşü və mühafizəsi” mövzusunda açıq dərs keçilib.

Naxçıvan Dövlət Universitetinin və Naxçıvan Müəllimlər İnstitutunun Kitabxanaçılıq və informasiya fəaliyyəti ixtisası üzrə təhsil alan tələbələri üçün keçilən dərsi giriş sözü ilə kitabxananın direktoru Tamella Əsgərova açaraq bildirib ki, kitabxana daim yenilənməli, oxucuların tələbatını ödəmək üçün dinamik olmalıdır. Kitabxana fondu kitabxananın işinə və profilinə uyğun olaraq qurulmalıdır.

Sonra kitabxananın Kitabsaxlama şöbəsinin müdiri Xurşud Budaqova “Kitabxana fondlarında çap əsərlərinin düzülüşü və mühafizəsi” mövzusunda çıxışında fondun tərkibi, düzülüşü barədə ətraflı məlumat verib.

Sonda tələbələri maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

2023-cü il "Heydər Əliyev İli"dir

# Müstəqil məhkəmə hakimiyyətinin qurucusu



*Ulu Öndərimiz Heydər Əliyevi anadan olmasının 100 illik yubileyi münasibətilə dərin hörmət və ehtiram hissi ilə anmaq, düşüncə və prinsiplərinə sahib çıxmaq bu dahi şəxsiyyəti sonsuzadək yaşatmaq deməkdir. Ötən 100 ilə nəzər saldıqda Azərbaycan tarixinə Heydər Əliyev qədər müdrik, uzaqgörən liderin gəlmədiyini görmək olar.*

Ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra xalqın tələbi ilə hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev demokratik, hüquqi dövlətin təməlini qoydu. Azərbaycan dövlətinin bütün sahələri kimi, məhkəmə sisteminin də yaradılması və inkişafı Ulu Öndərin adı ilə bağlıdır. Sovet hakimiyyəti illərində keşməkeşli yollar qət edən məhkəmə-hüquq sistemimizin dayanıqlı fəaliyyəti Ümummilli Liderin 1969-cu ildə Azərbaycan rəhbərliyinə gəlişi dövrünə təsadüf edir. SSRİ tərkibində Azərbaycan kimi, onun məhkəmə sistemi də keşməkeşli yol keçdi. Sirr deyil ki, Kremlin bir sıra hallarda Azərbaycana qarşı qərəzli mövqe tutması, başqa sahələrdə olduğu kimi, məhkəmə sisteminin fəaliyyətində də müəyyən problemlər yaradırdı. Bu neqativ tendensiyaya Ulu Öndər Heydər Əliyevin 1969-cu ildə Azərbaycana rəhbər seçilməsindən sonra son qoyuldu. Həmin sahə üzrə araşdırma aparan mütəxəssislər vurğulayırlar ki, Azərbaycan məhkəmə sistemi dayanıqlı, məqsədyönlü, ədalətli və hüquqa tam əməl etməklə fəaliyyətini davam etdirdi.

Ümummilli Lider Heydər Əliyev qabaqcıl beynəlxalq təcrübəni, ümumbəşəri demokratik prinsipləri rəhbər tutaraq Azərbaycanda məhkəmə hakimiyyətinin yaradılmasına, onun qanunvericilik əsaslarının formalaşmasına və bu sahədə islahatların həyata keçirilməsinə nail olub. Dahi liderin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra ölkədə mövcud olan hərc-mərcliyi, anarxiyanı aradan qaldırmaq, cinayətkarlıqla mübarizə və sabitliyin bərpası istiqamətində atdığı qətiyyətli addımlar məhkəmə sisteminin inkişafına ciddi təkan verdi. 1993-cü ildən ölüm cəzasının icrasına veto qoyuldu, 1998-ci ildə Şərqdə ilk dəfə olaraq Azərbaycanda bu cəza növü tamamilə ləğv edildi, əfv və amnistiya institutları geniş tətbiq olunmağa başladı. Ulu Öndərin rəhbərliyi və uzaqgörənliyi sayəsində Azərbaycan Respublikasında məhkəmə sistemi yalnız cinayət işlərinə və mülki mübahisələrə baxan ədliyyə orqanı kimi deyil, həmçinin vətəndaşların hüquqlarının müdafiəsini qanunvericiliyin tələblərinə uyğun şəkildə, yüksək səviyyədə təmin edən hakimiyyət orqanı kimi təşkil edilib.

1995-ci il noyabrın 12-də referendum yolu ilə qəbul edilən müstəqil Azərbaycan dövlətinin ilk Konstitusiyası məhkəmə hakimiyyətinin formalaşmasında mühüm mərhələ oldu. Azərbaycan Konstitusiyasının 7.3-cü maddəsində Azərbaycanda hakimiyyət bölgüsünün hüquqi prinsipləri, o cümlədən məhkəmə hakimiyyətinin Azərbaycan məhkəmələri tərəfindən həyata keçirildiyi qeyd olunub. Bu baxımdan Azərbaycan Respublikasının Konstitusiyasında təsbit olunan müstəqil məhkəmə hakimiyyətinin yaradılmasını həyata keçirmək məqsədilə "Məhkəmələr və hakimlər haqqında" Qanunun qəbulu mühüm və əlamətdar hadisədir. Konstitusiyaya, habelə 1998-ci il qəbul edilmiş "Məhkəmələr və hakimlər haqqında" Qanuna uyğun olaraq respublikada birinci instansiya, apelyasiya və kassasiya instansiyalı üçpilləli məhkəmə sisteminin yaradılması insan hüquq və azadlıqlarının etibarlı müdafiə mexanizmlərinin formalaşdırılmasına imkan yaradıb. Üçpilləli məhkəmə sistemi işlərə birinci məhkəmə instansiya qaydasında baxılması, bundan sonra hüquqa və fakta görə apelyasiya qaydasında yoxlanılması və nəhayət, çıxarılan qərarlara hüquqa görə kassasiya qaydasında yenidən baxılması, eyni zamanda hər kəsin hüquq və azadlıqlarının məhkəmələrdə müdafiəsi, məhkəmə qərarlarından şikayət vermək hüququnun təminatı baxımından əhəmiyyətli olub. Məhkəmə hakimiyyəti üzərində keçmiş ittifaq dövründən qalmış nəzarət mexanizmlərinin aradan qaldırılması, həbs və insan hüquqlarını məhdudlaşdıran digər prosessual məcburiyyət tədbirlərinin seçilməsi səlahiyyətinin məhkəmələrə verilməsi, istintaqa məhkəmə nəzarətinin təmini, eləcə də təhqiqat, istintaq və prokurorluq orqanlarının qanunsuz hərəkətlərindən məhkəməyə şikayət hüququnun müəyyən edilməsi də fundamental yeniliklər sırasında qeyd olunmalıdır. Bu baxımdan 1998-ci ildə Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin yaradılması Ulu Öndərin məhkəmə sisteminin inkişafına xüsusi diqqətindən xəbər verir. Azərbaycanda Konstitusiya Məhkəməsinin fəaliyyətə başlaması Konstitusiyanın aliliyini təmin edən, hər kəsin əsas hüquq və azadlıqlarını müdafiə edən yeni ədalət mühakiməsi orqanının yaradılması ilə yanaşı, həm də məhkəmə sistemində mühüm islahat idi. Azərbaycan Respublikasının Konstitusiyasında və digər qanunvericilik aktlarında məhkəmələrin, eyni zamanda hakimlərin hüquq və səlahiyyəti müəyyən edilərkən dünyanın aparıcı demokratik dövlətlərinin təcrübəsi, beynəlxalq təşkilatların tövsiyələri nəzərə alınıb. Bütün bunlar Azərbaycanda müstəqil, ədalətli məhkəmə sisteminin məhz Ümummilli Lider Heydər Əliyevin sayəsində formalaşdığını təsdiq edir.

Ulu Öndər Heydər Əliyev məhkəmə orqanlarının fəaliyyəti və səlahiyyət bölgüsü müəyyənləşərkən ali humanizm prinsiplərinə, fundamental insan hüquq və azadlıqlarının təmin olunmasına xüsusi əhəmiyyət verib. Belə ki, Azərbaycan Konstitusiyasında təsbit olunan "Hüquq və azadlıqların inzibati məhkəmə təminatı", "Hüquqi yardım almaq hüququ", "Məhkəmə aidiyyətinin dəyişdirilməsinə yol verilməməsi", "Təqsirsizlik prezumpsiyası", "Bir cinayətə görə təkrarən məhkum edilməyə yol verilməməsi", "Məhkəməyə təkrar müraciət etmək hüququ", "İnsan və vətəndaş azadlıqlarının təminatı" kimi maddələr məhkəmə orqanlarının dövlət və xalq qarşısında məsuliyyətini müəyyən edir, məhkəmə prosesinin ədalətli və şəffaf keçirilməsinə şərait yaradır.

2000-ci ildən başlayaraq dövlətçilik tariximizdə ilk dəfə olaraq şəffaf prosedurlar əsasında, o cümlədən test üsulu ilə hakim seçimi keçirilərək təyinatlar aparıldı. Əvvəlki hakim korpusu 60 faiz təzələndi. Bundan dərhal sonra ABŞ-da olarkən Ümummilli Lider "Azərbaycan Avrasiyanın qapısı, strateji və iqtisadi alyanslar ölkəsidir" mövzusunda keçirilmiş beynəlxalq konfransda demişdir: ***"Biz Azərbaycanın məhkəmə sistemini tamamilə yeni səviyyəyə qaldırdıq və demokratik prinsiplər əsasında yaratdıq. Bütün hakimlər test üsulu ilə imtahandan, yarışdan keçdilər və kim qalib gəldi, o da hakim təyin olundu".***

Ümummilli Liderin qanunvericilik təşəbbüsü əsasında 2002-ci il 24 avqust tarixdə keçirilmiş ümumxalq səsverməsi yolu ilə Azərbaycan Respublikası Konstitusiyasına edilmiş əlavə və dəyişikliklərin bir qisminin məhkəmə hakimiyyəti ilə bağlı olmasını da xüsusi vurğulamaq lazımdır. Konstitusiyanın apelyasiya məhkəməsinin səlahiyyətlərini, hakimlərin seçilməsi qaydasını müəyyən edən maddələrinin yeni redaksiyada verilməsi, prokurorluğun məhkəmə prosesində iştirakının cinayət məhkəmə icraatı ilə məhdudlaşdırılması, Ali Məhkəmənin ümumi və ixtisaslaşdırılmış məhkəmələrin işinə nəzarət funksiyasının ləğvi, ona yalnız kassasiya instansiyası statusunun verilməsi də əhəmiyyətli yeniliklərdən olub.

Müasir dövrdə məhkəmə-hüquq islahatları insan hüquq və azadlıqlarının təmini baxımından davamlı proses kimi dəyərləndirilir, zamanın aktual çağırışlarına uyğun olaraq yenilənir, ictimai gözlənti və tələbləri özündə ehtiva edir. Əminliklə deyə bilərik ki, 2003-cü ildən Ulu Öndər Heydər Əliyevin islahat siyasəti Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu uğurlu islahat siyasəti bu gün də məhkəmə hakimiyyətinə öz töhfəsini verir.

*Ulu Öndərimiz Heydər Əliyev demişdir:* ***"Biz qanunun keşiyindəyik və onun çərçivəsində hərəkət edəcəyik".*** *Məhkəmə hakimiyyətinin təmsilçiləri olaraq, Ümummilli Liderimizin ideyalarına sadiq qalaraq, onun prinsip və düşüncələri ilə yol almağa, əmanətinə sahib çıxaraq dövlətimizə dəyər qatmaq üçün var gücümüzlə çalışmağa davam edəcəyik.*

**İlqar MİRZƏYEV**
***Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin cinayət kollegiyasının sədri***

# Brüssel görüşü – siyasi arenada növbəti parlaq diplomatik qələbə

Mayın 14-də Brüsseldə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan ilə görüşü ölkəmizin siyasi arenadakı imicini, qətiyyətli mövqeyini göstərən bir sıra vacib məqamlarla yadda qaldı. Dörd saat davam edən üçtərəfli görüşdən sonra Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel mətbuata bəyanatla çıxış etdi. Bəyanatın detallarına toxunmadan öncə onu xüsusi vurğulamaq lazımdır ki, Ermənistan rəhbərinin Fransa tərəfinin də görüşə qatılması, danışıqlar masası arxasında əyləşməsi baxımından müxtəlif manevrləri Azərbaycan Prezidentinin siyasi iradəsi, nüfuzu qarşısında duruş gətirə bilməyib növbəti dəfə fiyaskoya uğradı. Bu məqamda xatırlatmaq yerinə düşər ki, ötən il dekabrın 7-də Brüsseldə keçirilməsi nəzərdə tutulan cənab İlham Əliyevlə Nikol Paşinyanın növbəti görüşü də məhz qarşı tərəfin bu ambisiyası ucbatından baş tutmamışdı. Azərbaycan Prezidenti 2022-ci il noyabrın 25-də ADA Universitetində keçirilən "Orta Dəhliz boyunca: geosiyasət, təhlükəsizlik və iqtisadiyyat" mövzusunda beynəlxalq konfransda çıxışında bəyan etmişdi ki, Ermənistanın baş naziri həmin görüşə yalnız orada Fransa Prezidenti Emmanuel Makronun iştirak edəcəyi təqdirdə razılıq verə biləcəyi şərtini irəli sürdüyündən həmin görüş baş tutmayacaq. Ermənistan tərəfi budəfəki görüş üçün eyni şərti irəli sürsə də, arzusu yenə gözündə qaldı, görüş Azərbaycanın prinsipial mövqeyinə uyğun keçirildi, qalib ölkə başçısı cənab İlham Əliyevin sülh, regional inkişaf vəd edən qələbə əzmli ideyaları qarşısında məğlub Paşinyan heç bir əsaslı arqument ortaya qoya bilməyərək Belçikadan əliboş, peşman halda geri qayıtdı.

Mətbuata verilən bəyanatın detallarına gəlincə onu qeyd etmək olar ki, Ermənistanın hər vəchlə 30 ilə yaxın onların nazını çəkən ATƏT-in Minsk qrupunu danışıqlar masasına çəkməsi, eləcə də 1975-ci ilin xəritələrinin gündəmə gətirilməsi barədə israrı uğursuzluğa düçar oldu, müzakirələrdə Azərbaycanın maraqlarını kompleks şəkildə ifadə edən "Alma-Ata Bəyannaməsi" əsas götürüldü. Belə ki, liderlər 1991-ci ilin "Alma-Ata Bəyannaməsi"nə və Ermənistanın 29,800, Azərbaycanın 86,600 kvadratkilometr ərazisinin toxunulmazlığına birmənalı sadiqliklərini təsdiq etdilər. Xatırladaq ki, bəyannamənin 3-cü bəndində MDB üzvü olan dövlətlərin qarşılıqlı şəkildə dövlətlərin ərazi bütövlüyünü və sərhəd toxunulmazlığını tanıması qeyd olunur. Təəssüf ki, 1993-cü ildə Ermənistan Azərbaycanla bərabər "Alma-Ata Bəyannaməsi"ni imzalasa da, onun müddəalarına əməl etməkdən hər zaman boyun qaçırıb... Brüssel görüşünün nəticələrinə dair mətbuata açıqlamasında Şarl Mişelin dediyi "Bizim fikir mübadiləmiz səmimi, açıq və nəticəyönümlü idi. Əsas diqqət Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesinə yönəldilmişdi. Liderlər Cənubi Qafqazda sülhün bərqərar olunması üçün birgə istəklərini ifadə etdilər. Mən müvafiq səyləri təqdir edirəm. Biz gündəliyimizdə olan bütün məsələləri birlikdə nəzərdən keçirdik. Bu yaxınlarda sülh sazişi ilə bağlı ABŞ-da keçirilmiş müsbət danışıqlardan sonra bu impuls saxlanılaraq Azərbaycan ilə Ermənistan arasında əhatəli sülh sazişinin imzalanması üçün qətiyyətli addımlar atılmalıdır" sözləri Avropa İttifaqı Şurası Prezidentinin vasitəçilikdən daha çox dialoqa dəstək verən, sülhün əldə edilməsində maraqlı olduğunu, danışıqlarda bitərəf, ədalətli mövqe tutduğunu göstərdi.

Sərhədlərin delimitasiyası ilə bağlı məsələlərin də əsas müzakirə predmetinə çevrildiyini göstərən bəyanatda digər diqqətçəkən və regional inkişafa töhfə verəcək məqamlardan biri Zəngəzur dəhlizi ilə bağlı məsələnin danışıqlar masasına yatırılmasıdır. Belə ki, Şarl Mişelin sözlərinə görə, görüşdə tərəflər regionda nəqliyyat və iqtisadi əlaqələrin bərpası istiqamətində müzakirələrdə aydın irəliləyişə nail olublar. Bu mövzuda, xüsusilə də Naxçıvana və əks istiqamətdə dəmir yolu əlaqəsinin bərpasına dair mövqelər olduqca yaxınlaşıb. Dəmir yolu əlaqələrinin bərpası ilə bağlı modallıqları və konkret qrafik üzrə zəruri inşaat işlərini özündə ehtiva edəcək ümumi razılaşmanın yekunlaşdırılmasına dair müvafiq heyətlərə təlimatlar verilib. Bu işdə tərəflər Ümumdünya Gömrük Təşkilatından dəstək alınmasına dair razılığa gəliblər. Şarl Mişelin bu fikirləri təsdiqləyir ki, böyük güclərin xüsusi marağında olan Zəngəzur dəhlizinin açılması ilə bağlı Azərbaycanın irəli sürdüyü ideya Avropa İttifaqı tərəfindən də tam dəstəklənir. Cərəyan edən hadisələr, mövcud siyasi vəziyyət belə bir yekdil nəticəyə gəlməyə əsas verir ki, müharibədən ötən 2 il yarım ərzində cənab İlham Əliyevin dəhlizin açılması ilə bağlı qətiyyətli mövqeyi qarşısında Paşinyanın göstərdiyi lüzumsuz dirənişlər də artıq müvazinətini itirmək üzrədir və dövlət başçımızın dediyi kimi: ***"Zəngəzur dəhlizinin açılması mütləq olmalıdır, Ermənistan bunu istəsə də, istəməsə də. Biz ortaya güclü iradə qoymuşuq, bütün işlər plan üzrə gedir. Bizim tələbimiz əsaslıdır və ədalətlidir. Azərbaycanın əsas hissəsi ilə onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası ilə bizim bağlantımız olmalıdır və olacaqdır".***

Bəyanatda vurğulanan digər vacib məqam isə ölkəmizin beynəlxalq hüquq norma və qaydalarına uyğun hər zaman vacib bildiyi humanitar məsələlərlə bağlıdır. Belə ki, görüşdə yolunu azan və qarşı tərəfə keçən əsgərlərin sürətli prosedur vasitəsilə azad edilmələrinə dair qarşılıqlı anlaşmanın təmin olunmasının davam etdirilməsi vurğulanıb. İtkin düşmüş şəxslərin taleyi ilə bağlı müzakirələr də aparılıb ki, bu da ölkə başçımızın davamlı olaraq gündəmə gətirdiyi birinci Qarabağ müharibəsində əsir götürülən azərbaycanlıların qaranlıq taleyinə işıq salınması baxımından mühüm əhəmiyyət kəsb edir. Həmçinin görüşdə ölkəmizin maraqlarına xidmət edən digər bir əsas məsələ – yüzlərlə soydaşımızın həyatına son qoyan minaların təmizlənməsinin sürətləndirilməsinin vacibliyi də diqqətə çatdırılıb.

Brüssel görüşündə Laçın yolunun başlanğıcında, Ermənistan-Azərbaycan sərhədində nəzarət-buraxılış məntəqəsinin yaradılmasına dair, eləcə də Qarabağ məsələsinin, ümumiyyətlə, gündəmə gətirilməməsi beynəlxalq platformanın Azərbaycan Prezidentinin siyasi iradəsi ilə hesablaşması, dövlətimizin regionda yaratdığı reallıqların Avropa miqyasında qəbul edilməsi baxımından olduqca mühüm amil kimi diqqətləri çəkdi. Rəsmi Bakının Qarabağın erməni əhalisi ilə şəffaf və konstruktiv dialoq aparması zərurəti məsələsinin qaldırılması da özlüyündə ölkəmizin ərazi bütövlüyünə, suverenliyinə, Konstitusiyasına hörmət və cənab İlham Əliyevin qətiyyətli mövqeyinin təsdiqi deməkdir: ***"Azərbaycanın Qarabağ regionunda yaşayan erməni əhalisi bizim vətəndaşlarımızdır və biz onların həyatını necə qaydaya salacağımızı heç bir beynəlxalq mərkəzlə müzakirə etməyəcəyik".***

Ümumilikdə, mayın 14-də Belçikanın paytaxtında keçirilən, Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması, sərhədlərin delimitasiyası, sülh müqaviləsinə doğru növbəti addımların atılması, kommunikasiyaların açılması, humanitar, o cümlədən Azərbaycana qarşı mina terroru, itkin düşənlərin taleyi və digər məsələləri özündə ehtiva edən üçtərəfli görüş çox mühüm siyasi-tarixi əhəmiyyətə malikdir. Görüş, xüsusilə də Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü bu dəfə Avropa İttifaqı platformasında tanıması baxımından ölkəmizin siyasi arenada qazandığı növbəti parlaq diplomatik qələbəsi kimi tarixə düşdü. Növbəti Brüssel görüşünün iki ay sonraya, iyula salınması isə ATƏT-in Minsk qrupundan fərqli olaraq, bu formatın məqsədinin gərəksiz yerə vaxt uzatmaq deyil, konkret nəticələri hədəflədiyini deməyə əsas verir...

**Nail ƏSGƏROV**

**Ulu Öndər Heydər ƏLİYEV:** ***Milli ənənələrimizin nə qədər dəyərli olduğunu dünyaya gələn yeni nəsillərə çatdırmaq və onları bu ənənələr əsasında tərbiyə etmək üçün muzeylər lazımdır.***



*18 may Beynəlxalq Muzeylər Günüdür*

# Muzeylər tariximizin yaddaş kitabıdır

*Muzeylər xalqımızın tarixini, mədəniyyətini, dövlətçilik ənənələrini, ədəbiyyatını, ictimai fikrini, mübarizə epopeyasını əks etdirməklə ölkəmizdə zəngin mədəni irsin qorunması və təbliğ olunması işində mühüm rol oynayır. Maddi-mənəvi dəyərlərin saxlanc yerləri olan muzeylər ötüb keçən zamanın şahidi, tarixin bütün dövrlərinə bələdçilik edib tanıdan, təbliğ edən, yaşadan, sevdirən mədəniyyət ocaqlarıdır. Bu gün respublikamızın bütün bölgələrini əhatə edən muzeylərimiz nadir sənət incilərinin və milli sərvətlərin nümayiş etdirildiyi geniş bir şəbəkəyə malikdir.*

YUNESKO-nun Beynəlxalq Muzeylər Şurasının 1977-ci ildə qəbul etdiyi Qərara əsasən 18 may bütün dünyada “Beynəlxalq Muzeylər Günü” kimi qeyd edilir. Bu bayram, bir qayda olaraq, xalqlar arasında mədəni mübadilə və əməkdaşlığın inkişafına kömək şüarı ilə keçirilir. Bu günün qeyd olunmasında əsas məqsəd ictimaiyyətin diqqətini mədəni irsə cəlb etməklə, xalqlar arasında mədəni mübadilə və əməkdaşlığın inkişafına kömək göstərməkdən ibarətdir.

Ölkəmizdə muzey işi qədim dövrlərdən başlayaraq özünəməxsus inkişaf yolu keçmişdir. Azərbaycan hökmdarlarının saraylarında, məbədlərdə, həmçinin digər tikililərdə mədəniyyət tariximizin ən müxtəlif dövrlərinə aid qiymətli əşyalar və sənət nümunələri mühafizə edilmişdir. Tarixi və bədii əhəmiyyət daşıyan eksponatların mühüm bir qismi sonrakı dövrlərdə əsas etibarilə şəxsi kolleksiyalarda toplanmışdır. Eyni zamanda tarixən regionda baş vermiş geosiyasi hadisələr nəticəsində Azərbaycan mədəniyyətinin, elminin, incəsənətinin unikal nümunələri yüksək estetik dəyərə malik əsl sənət möcüzələri kimi dünyanın ən məşhur muzeylərinin daimi eksponatları sırasında yer almışdır. Azərbaycanın ictimai-siyasi, mədəni həyatında XIX əsrin ikinci yarısından etibarən sürətlə cərəyan edən proseslər muzey işinin təşkilinə təkan vermiş, ilk belə muzeylərdən biri görkəmli ədib Cəlil Məmmədquluzadənin təşəbbüsü və yaxından iştirakı ilə XIX əsrin sonlarında Naxçıvanın Nehrəm kənd məktəbində təşkil olunmuşdur.

Ölkəmizdə muzey işinin inkişafı Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Dahi şəxsiyyət ölkəmizə rəhbərliyinin hər iki dövründə Azərbaycanın tarixi-mədəni irsinin qorunması, öyrənilməsi və təbliği məsələlərini daim diqqətdə saxlamışdır. Xalqımızın milli tarixi və mədəni irsinin qorunmasında muzeylərin dəyərini dərindən və həssaslıqla duyan Ulu Öndər respublikada müvafiq şəbəkənin genişləndirilməsini, onun maddi-texniki bazasının gücləndirilməsinə böyük əhəmiyyət vermişdir. Azərbaycan mədəniyyətinin Üzeyir Hacıbəyli, Hüseyn Cavid, Cəlil Məmmədquluzadə, Məmməd Səid Ordubadi, Cəfər Cabbarlı, Bülbül, Səməd Vurğun, Niyazi və digər nəhəng simalarının memorial-xatirə, bölgələrdə tarix-diyarşünaslıq muzeyləri məhz Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə yaradılmış mədəniyyət ocaqlarındandır. Ötən əsrin 70-ci illərindən etibarən respublikada muzey şəbəkəsinin inkişafı daha intensiv şəkil almış və yüzdən çox muzey yaradılmışdır. Ölkəmizdə tarix-diyarşünaslıq muzeyləri, görkəmli tarixi şəxsiyyətlərin, ədəbiyyat və incəsənət xadimlərinin ev-muzeyləri, xatirə muzeyləri təşkil edilmişdir. Əgər 1969-cu ilədək Azərbaycanda cəmi 29 muzey fəaliyyət göstərirdisə, Ümummilli Liderin hakimiyyəti illərində ölkəmizdə 111 müxtəlif profilli muzey yaradılmışdır.

***“Milli ənənələrimizin nə qədər dəyərli olduğunu dünyaya gələn yeni nəsillərə çatdırmaq və onları bu ənənələr əsasında tərbiyə etmək üçün muzeylər lazımdır”***, – deyən Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə müstəqillik illərində də muzey işi öz inkişafının yeni mərhələsinə qədəm qoymuşdur. Muzey işçilərinin respublika müşavirəsi keçirilmiş, “Respublikada muzey işinin vəziyyəti və onun yaxşılaşdırılması haqqında” Qərar qəbul edilmişdir. 2000-ci ildə qəbul edilən “Muzeylər haqqında” Azərbaycan Respublikasının Qanunu ölkəmizdə muzeylərin fəaliyyətinin təşkilati-hüquqi əsaslarını müəyyən edir və bunlarla bağlı münasibətləri tənzimləyir.

***“Xalqımızın ən qədim zamanlardan müasir dövrədək tarixini və mədəniyyətinin inkişaf yolunu əks etdirən Azərbaycan muzeyləri ölkəmizdə zəngin mədəni irsin qorunması və təbliğ olunması işində mühüm rol oynayır”***, – deyən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən də bu sahədə uğurlu addımlar atılır, mühüm işlər həyata keçirilir. Ölkəmizdə 200-dən çox muzeyin fəaliyyət göstərməsi bunun bariz ifadəsidir. Dövlət başçısının “Azərbaycanda muzey işinin yaxşılaşdırılması haqqında” 2007-ci il 6 mart tarixli Sərəncamı və 2009-cu il 22 may tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycanın regionlarında fəaliyyət göstərən muzeylərin müasir standartlara uyğun təmirinə, yeni avadanlıq və zəruri eksponatlarla təchizatına dair xüsusi Tədbirlər Planı” bu sahənin hüquqi bazasının formalaşmasına, dünyanın nüfuzlu muzeyləri ilə əlaqələrin genişlənməsinə imkan yaratmışdır. Eyni zamanda “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasının gerçəkləşdirilməsi məqsədilə Prezident cənab İlham Əliyevin 2013-cü il 27 dekabr tarixli Sərəncamı ilə təsdiq olunmuş “Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı”na uyğun olaraq milli mədəni irsimizin qorunması dövlət əhəmiyyətli prioritet məqsəd kimi qarşıya qoyulmuşdur.

Azərbaycan dövlətinin uğurlu mədəniyyət siyasəti nəticəsində son illər muzeylərimizin dünyanın nüfuzlu muzeyləri ilə əlaqələri genişlənmiş, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın böyük zəhməti sayəsində “Şirvanşahlar Sarayı Kompleksi”, Qız qalası və Qobustan Milli Tarix-Bədii Qoruğu, “Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi” UNESCO-nun Dünya irsi siyahısına daxil edilmişdir.

Muxtar respublikamızda da muzey işinin özünəməxsus inkişaf tarixi vardır. 1896-cı ildə böyük yazıçı və dramaturqumuz Cəlil Məmmədquluzadə Nehrəm kənd məktəbində muzey yaratmaq təşəbbüsü ilə Xalq Məktəbləri İdarəsinə yazılı müraciət etmiş və Azərbaycanda ilk dəfə olaraq bu kənd məktəbində Naxçıvanın tarixinə dair maddi mədəniyyət nümunələrinin toplandığı muzey yaratmışdır. Azərbaycan Sovet Sosialist Respublikası Xalq Komissarları Sovetinin 1924-cü il 30 oktyabr tarixli Qərarına əsasən Naxçıvanda Tarix-Etnoqrafiya Muzeyi təşkil edilmişdir. 1926-cı ildə Naxçıvan şəhər sakini Balabəy Əlibəyovun yaratdığı şəxsi muzey dövlət muzeyi kimi fəaliyyət göstərməyə başlamışdır.





Müstəqillik illərində ölkəmizin hər bir bölgəsində olduğu kimi, muxtar diyarda da muzeylərin fəaliyyətinin canlandırılması, yeni muzeylərin yaradılması sahəsində mühüm işlər görülmüş, Azərbaycan tarixinin yeni uğurlu səhifələri muzey ekspozisiyalarında əksini tapmışdır.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin şəxsi iştirakı ilə Bəhruz Kəngərli Muzeyi və Cəlil Məmmədquluzadənin ev-muzeyinin açılışı olmuş, dahi rəhbərin adını daşıyan ilk muzey Naxçıvanda yaradılmışdır. Dövlət başçısının muzey işinin yaxşılaşdırılması və regionlarda fəaliyyət göstərən muzeylərin müasir standartlara uyğun təmiri və fəaliyyətinin təmini üçün atdığı addımların nəticəsi olaraq canlı tarix muzeyi olan Naxçıvanda son illərdə Bəhruz Kəngərli Muzeyi əsaslı şəkildə yenidən qurulmuş, “Gəmiqaya” Tarix-Bədii Qoruğu və Muzeyi üçün bina istifadəyə verilmiş, “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksi, Xalq şairi Məmməd Arazın ev-muzeyi, Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyi, Naxçıvan şəhərində Xatirə Muzeyi, Şərur rayonundakı Cəlilkənddə Cəlil Məmmədquluzadənin Xatirə Muzeyinin yeni binaları, həmçinin Ordubad şəhərində Məhəmməd Tağı Sidqinin ev-muzeyi, Naxçıvan Duz Muzeyi fəaliyyətə başlamış, Əlincəqalada bərpa işləri aparılmış və burada muzey yaradılmışdır. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2023-cü il 10 may tarixli Qərarı ilə Ulu Öndərin zəngin və çoxşaxəli irsinin öyrənilib təbliğ edilməsindəki aktiv rolunu, zəngin fond eksponatlarını, müxtəlif səciyyəli elmi konfransların, seminarların, interaktiv dərslərin, görüşlərin təşkil edilib keçirildiyini və muxtar respublikanın həyatında müstəsna rolunu nəzərə alaraq Heydər Əliyev Muzeyinə “muxtar respublika” statusu verilmişdir.

Hazırda muxtar respublikada 1 rəsm qalereyası və 29 müxtəlif profilli muzey fəaliyyət göstərir. Bu mədəniyyət ocaqlarında xalqımızın tarixini, həyat tərzini, adət-ənənələrini özündə əks etdirən 130 minə yaxın eksponat toplanmışdır. Muzey fondlarının mütəmadi zənginləşdirilməsi diqqət mərkəzində saxlanılır. Ötən il muxtar respublikanın muzeylərinə 1125 yeni eksponat daxil olmuş, təkcə bu ilin 4 ayında muzeylərimiz 594 yeni eksponatla zənginləşdirilmiş, ötən dörd ay ərzində 150 minə yaxın şəxs muzeylərimizi ziyarət etmişdir. Bu gün muxtar respublika sakinlərinin evlərində olan qədim maddi mədəniyyət nümunələrinin muzeylərə təqdim etməsi, muxtar diyarda yaşayıb fəaliyyət göstərən incəsənət nümayəndələrinin öz əsərlərini muzeylərə bağışlama ənənəsi var ki, bu da muzey fondlarının zənginləşdirilməsinə xidmət etməklə, tarixi-mədəni irsimizin qorunması və təbliğinə şərait yaradır.



Muxtar diyarda fəaliyyət göstərən muzeylərdə mütəmadi olaraq Azərbaycanın tarixi və mədəniyyəti, görkəmli şəxsiyyətlərimizlə bağlı açıq və interaktiv dərslər, görüşlər, dəyirmi masalar, kitab müzakirələri, mühazirələr təşkil olunur, sərgilər qurulur, uşaq və yeniyetmələrin, gənclərin muzeylərlə əlaqələrinin möhkəmləndirilməsi üçün müxtəlif layihələr həyata keçirilir. Naxçıvanda bir sıra muzeylərin internet saytının istifadəyə verilməsi muzey ekspozisiyalarını internet üzərindən virtual olaraq birbaşa izləmək imkanı yaradır. Həmçinin muxtar respublikadakı muzeylərin onlayn fəaliyyəti təşkil edilmiş, keçirilən ekskursiyalar Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin internet resurslarından onlayn formada yayımlanmışdır. Muxtar respublikadakı muzeylərdə çalışan muzey işçilərinin əməyi dövlətimiz tərəfindən daim yüksək qiymətləndirilmiş, onlar fəxri adlara layiq görülmüş, medallarla təltif edilmişdir.

30 illik işğala son qoyub əzəli və əbədi torpaqlarımızı azad etməklə tarixi qələbəyə imza atan Azərbaycan illərboyu mənimsənilib talan edilən mədəni və tarixi irsimizin də işğalına son qoydu. İllərboyu tarixi abidələrimizi, muzey binalarını dağıtmaqla kifayətlənməyən mənfur qonşular işğalın son gününə qədər xalqımızın tarixi yaddaşını yox etmək, torpaqlarımızda türk-Azərbaycan mədəniyyətinin izlərini silmək üçün qiymətli eksponatları dünyanın sənət sərgilərinə öz adları ilə çıxarıb, mənimsəməkdən də utanmamışlar. Ermənilər tərəfindən işğal dövründə 22 muzeyimiz məhv edilmişdir. Tarixi mədəni irsin, eləcə də muzeylərimizin bərpası və mühafizəsini daim diqqət mərkəzində saxlayan ölkə başçısı cənab İlham Əliyev və Mehriban xanım Əliyevanın qayğısı sayəsində Qarabağda muzeylər, tarixi abidələr intibah dövrü yaşamağa başlamış, mədəni irsimizin bərpası və mühafizəsi əsas prioritetlərdən biri olmuşdur. Dağıdılmış muzeylərlə yanaşı, yeni muzeylərin də yaradılması, Xalq artisti Bülbülün ev-muzeyinin, Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin, Milli Xalça Muzeyinin Şuşa filialının, Mehmandarovların malikanəsinin tarixi ənənələri, milli memarlıq xüsusiyyətlərini yaşatmaqla qurulub istifadəyə verilməsi, Üzeyir Hacıbəylinin Şuşa şəhərindəki ev-muzeyində, Pənahəli xanın sarayında və digər tarixi, mədəni abidələrimizdə aparılan təmir-bərpa işləri ölkəmizdə muzey işinə verilən dəyərin sübutudur.

Bu gün Ulu Öndərin yolu ilə gedərək istənilən sahədə inkişafa, uğurlara imza atan Azərbaycanın bütün nailiyyətlərinin təməlində milli-mənəvi dəyərlərimizə bağlılığının dayandığını vurğulayan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 10 may tarixdə Ulu Öndərin anadan olmasının 100 illik yubileyi münasibəti ilə Azərbaycan xalqına müraciət edərkən demişdir: ***“Gənc nəsil milli-mənəvi dəyərlərə bağlı olmalıdır, öz ədəbiyyatına, musiqisinə, incəsənətinə bağlı olmalıdır və biz bunu görürük, biz gəncləri belə yetişdiririk”.***

*Öz tarixi dəyərlərinə bağlı, milli-mənəvi dəyərlərini sevən, tanıyan, təbliğ edən gəncliyin, gələcəyin yetişdirilməsində, heç şübhəsiz, mədəniyyət ocaqlarının, muzeylərin üzərinə böyük məsuliyyət düşür. Muzeylər tarixi xəzinəmizi qoruyub saxlamaqla yanaşı, təbliğinə diqqəti artırmalı, uşaq,yeniyetmə və gənclərin milli ruhda böyüməsinə öz töhfəsini verməlidir.*

**Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti**

### Bildiriş

“Orqanik Məhsul Fermer Təsərrüfatı” MMC Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin 16 may 2023-cü il tarixli 09 saylı sərəncam ilə ləğv edilmişdir.

### İtmişdir

Şahbuz rayonunun Kükü kəndində yaşayan Bədəlov Əkbər Burcəli oğlunun adına verilmiş JN-090A inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

**

Sədərək rayonunun, Sədərək kəndində yaşamış Cəfərov Allahverən Məmmədvəli oğluna məxsus JN-2367[A] nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonunun, Xok kəndində yaşamış Seyidov Mirəhməd Mirəli oğlunun adına olan JN-586[A] inventar nömrəli, 10800038 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 338